# Dostluq və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-İtaliya münasibətləri yeni inkişaf mərhələsində



**Siyavuş Novruzov,**
**YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri**

Yüksək beynəlxalq nüfuza, müsbət reputasiyaya malik olan, dünyada böyük etimad qazanan müstəqil Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Ölkəmiz praqmatik və çoxvektorlu xarici siyasət kursu ilə regional və qlobal təhlükəsizliyə fundamental töhfələr verir, beynəlxalq miqyasda əməkdaşlığın dərinləşməsində və inteqrasiyanın intensiv xarakter daşımasında mühüm rol oynayır. Azərbaycanın təşəbbüsü və liderliyi ilə reallaşdırılan transmilli enerji və nəqliyyat-kommunikasiya layihələrinin səmərəli geostrateji nəticələri bunun bariz nümunəsidir. Bəhs olunan aşkar reallıqların fonunda istər regional, istərsə də qlobal miqyasda mühüm təsir imkanları və mexanizmlərinə malik olan müstəqil milli dövlətlər, eləcə də beynəlxalq münasibətlər sistemində güc mərkəzləri kimi çıxış edən ölkələr tərəfindən Azərbaycanın dünya siyasətində fəal rolu yüksək qiymətləndirilir, respublikamızla müxtəlif sahələri əhatə edən əlaqələrin inkişafına böyük əhəmiyyət verilir. Bu baxımdan, Avropanın lokomotiv aktorlarından olan İtaliya Respublikasının Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verməsi ayrıca qeyd edilməlidir. Öz növbəsində, Azərbaycanın xarici siyasət kursunda da İtaliya ilə qarşılıqlı faydalı münasibətlər mühüm yer tutur. Heç şübhəsiz, bu günlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İtaliyaya dövlət səfəri tərəflər arasında müxtəlif sahələri əhatə edən çoxşaxəli əlaqələrin inkişafı baxımından böyük əhəmiyyətə malikdir. Əlamətdar haldır ki, bu səfər cari ildə İtaliyaya xarici ölkələrin dövlət başçıları tərəfindən edilən ilk dövlət səfəridir. Bu fakt İtaliyanın Azərbaycanla dostluq və tərəfdaşlığa əsaslanan münasibətlərin inkişafına verdiyi dəyərin bariz nümunəsi - əyani ifadəsidir. Dövlətimizin başçısının bəhs olunan ölkəyə səfəri zamanı keçirilən görüşlər və imzalanan çoxsaylı sənədlər iki ölkə arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın yüksək səviyyədə olmasını əks etdirir. Azərbaycan Prezidentinin italiyalı həmkarı Sercio Mattarella, İtaliya Respublikası Nazirlər Şurasının Sədri Cüzeppe Konte, İtaliya Respublikası Senatının Sədri xanım Maria Elisabetta Alberti Kaselatti və Deputatlar Palatasının Sədri Roberto Fiko ilə görüşləri zamanı səsləndirilən fikirlər iki ölkə arasında münasibətlərin həm də yaxşı perspektivlərə malik olmasını təsdiq edir. Səfər çərçivəsində iki dövlət arasında ümumilikdə 28 sənədin imzalanması isə siyasi, müdafiə, iqtisadi-ticarət, energetika, yüksək texnologiyalar, nəqliyyat, infrastruktur, mədəni, elmi, turizm, idman sahələrində əlaqələrin inkişafına vacib töhfədir. Ən mühüm məqamlardan biri isə "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"nin imzalanmasıdır. Sənəd bilavasitə Prezident İlham Əliyev və Baş Nazir Cüzeppe Konte tərəfindən imzalanıb. Birgə Bəyannamədə tərəflərin bir-birinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək ifadə etmələri isə strateji əhəmiyyətə malikdir. Sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktının təməl prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı əsasında, BMT və ATƏT-in müvafiq sənəd və qərarlarında təsbit olunduğu kimi, habelə ATƏT-in himayəsi altında aparılan danışıqlar prosesi çərçivəsində sülh yolu ilə nizamlanmasının birmənalı şəkildə dəstəklənməsi tarixi önəm kəsb edir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, dünyanın diqqətində olan 56-cı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrdə Azərbaycan Prezidenti tərəfindən tarixi, hüquqi və siyasi reallıqların beynəlxalq ictimaiyyətin diqqətinə qətiyyətlə çatdırılmasından sonra sözügedən strateji sənəddə ölkəmizin haqlı və ədalətli mövqeyinə dəstək xarakterli müddəaların əksini tapması növbəti mühüm diplomatik nailiyyətdir. Başqa sözlə, Avropa İttifaqının aparıcı ölkələrindən biri ilə imzalanmış Birgə Bəyannamədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktı, BMT və ATƏT tərəfindən qəbul edilmiş qətnamə və qərarlar əsasında həll olunmasının göstərilməsi Azərbaycanın ardıcıl və məqsədyönlü strateji diplomatiya siyasətinin çox əhəmiyyətli uğurudur. Birgə Bəyannamədə əksini tapmış mühüm məsələlərdən biri tərəflərin Trans Adriatik Boru Kəməri (TAP) layihəsinin vaxtında tamamlanması üçün səylər göstərəcəklərini ifadə etmələridir. Bu, heç şübhəsiz, regional və beynəlxalq təhlükəsizlik, o cümlədən Avropanın enerji təhlükəsizliyi baxımından olduqca önəmlidir. Çünki TAP Cənub Qaz Dəhlizinin tam fəaliyyət göstərməsinə, Azərbaycan qazının Avropaya çatdırılmasına yeni imkanlar yaradacaq. Beləliklə, təbii qaz mənbələrinin və təchizat marşrutlarının şaxələndirilməsi ilə Avropa enerji təhlükəsizliyi möhkəmləndirilmiş olacaq. Bütövlükdə, Azərbaycanın təşəbbüsü ilə reallaşan və Avropanın ən böyük infrastruktur layihələrindən olan Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Azərbaycanın İtaliya ilə sıx əməkdaşlığı strateji xarakter daşıyır. Səfər zamanı diqqət mərkəzində olan əhəmiyyətli məsələlərdən biri tərəflər arasında ticari-iqtisadi münasibətlərin inkişafı oldu. Məlumdur ki, İtaliya Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşıdır. Keçən il İtaliya ilə ümumi ticarət dövriyyəmiz 6 milyard dollardan artıq olub. Ümumilikdə isə İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 92 faizi Azərbaycanın payına düşür. Ötən il Azərbaycan İtaliyanın ən böyük xam neft təchizatçısı olub. Bu faktlar həm də dünya iqtisadiyyatına uğurla inteqrasiya edən Azərbaycanın beynəlxalq miqyasda səmərəli və məhsuldar ticari-iqtisadi əlaqələrinin daha bir göstəricisidir. Nəticə etibarilə, dövlətimizin başçısının bəhs olunan səfəri, səfər çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edən sənədlərin imzalanması və digər mühüm faktlar dostluq və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-İtaliya münasibətlərinin yeni inkişaf mərhələsinə yüksəldiyini deməyə əsas verir.

# Mübariz Qurbanlı: Azərbaycan tolerantlığına, multikultural dəyərlərinə görə dünyada nümunəvi bir ölkə kimi tanınır



Azərbaycanda bütün sahələrdə olduğu kimi, din sahəsində də sabitlik mövcuddur.

Bunu Trend-ə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

M.Qurbanlı bildirib ki, Azərbaycan dünyada tolerantlığa, multikultural dəyərlərinə görə nümunəvi bir ölkə kimi tanınır: *"Fevralın 22-də cənab Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Katolik Kilsəsinin rəhbəri Papa Fransisk ilə görüşündə də Azərbaycanda ictimai-siyasi sabitliyin hökm sürdüyünü, xalqımızın rifah içərisində yaşadığını qeyd edən Papa Fransisk ölkəmizdə dini icmalar arasındakı tolerant münasibətlərə toxunub. Azərbaycanda müxtəlif dini konfessiyalar, dini təriqətlər arasında heç bir qarşıdurma müşahidə olunmur. Baxmayaraq ki, bəzi ölkələrdə biz dini baxımından məzhəblər və təriqətlər arasında qarşıdurmalar, toqquşmalar müşahidə edirik, din adı altında gizlənən radikal, ekstremist qrupların həmin ölkələrdə öz məqsədlərinə çatmaq üçün dini istismar etdiklərini görürük, ancaq Azərbaycanda bu baxımdan sabitlik hökm sürür.*

*Azərbaycanın təqdim etdiyi tolerantlıq və birgəyaşayış nümunəsi dünyada münaqişələrin və toqquşmaların aradan qaldırılmasına xidmət edən əsas meyarlardan biridir. Eyni zamanda, Azərbaycanda mədəniyyətlərarası dialoq, multikulturalizm, həmçinin müsəlmanlar, xristianlar və yəhudilər arasında harmoniya möhkəmlənib, bütün dini konfessiyaların sərbəst fəaliyyəti üçün lazımi şərait yaradılıb. Ölkəmizə istər xristian və yəhudi, istərsə də müsəlman ölkələrindən gələn nümayəndələr Azərbaycandakı bu sabit vəziyyəti yüksək qiymətləndirirlər".*

M.Qurbanlı bildirib ki, Azərbaycan dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqinə də mühüm töhfə verir: *"Bilirsiniz ki, ötən il Azərbaycanda dünya dini liderlərinin ikinci böyük sammiti keçirildi və həmin sammitdə dünyanın tanınmış dini liderləri iştirak edirdilər. Sammitdə bütün çıxışlarda Azərbaycandakı dini durum yüksək dəyərləndirildi. Bütün bunlar cənab Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin məntiqi nəticəsidir. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Azərbaycanın multikultural, tolerant dəyərləri dünya miqyasında tanıdılır.*

*Bildiyiniz kimi, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Vatikanda Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə layiq görülüb. Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu ordenə mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə layiq görülüb. Əlbəttə, bu, eyni zamanda, beynəlxalq aləmdə Mehriban xanım Əliyevanın fəaliyyətinə verilən böyük dəyərdir".*

# ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyasının nümayəndələri Dövlət Komitəsində olublar

Fevralın 24-də Amerika Birləşmiş Ştatlarının Beynəlxalq Din Azadlığı Komissiyasının (BDAK) sədr müavinləri Qeyl Mançin, Nadin Menza və Komissiyanın Beynəlxalq hüquq üzrə mütəxəssisi Kristen Laveri, siyasi analitiki Kill Bakken Dövlət Komitəsində olublar. Görüşdə qonaqları ABŞ səfirliyinin siyasi işlər üzrə müşaviri Uilyam Solley müşayiət edib.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı qonaqlara Azərbaycanın dövlət-din münasibətləri modeli, dini durum haqqında ətraflı məlumat verib, multikultural dəyərlərin, dini tolerantlığın cəmiyyətimizin nümunəvi normasına çevrildiyini və bu ənənələrin Azərbaycan dövləti tərəfindən inkişaf etdirildiyini qeyd edib. Bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq bu gün dövlət və din münasibətləri, dinlərarası harmoniya özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Hər kəsin inancına hörmətlə yanaşmaq Azərbaycan xalqının ən əsas prinsiplərindən biridir.

Respublikamızda 35-i qeyri-islam olmaqla 941 dini icmanın dövlət qeydiyyatına alındığını vurğulayan Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, dini qurumların fəaliyyəti hərtərəfli dəstəklənir.

Eyni zamanda, görüşdə ölkəmizdəki dini vəziyyət barədə fikir mübadiləsi aparılıb, Komissiya nümayəndələrinin dini sahə ilə bağlı sualları cavablandırılıb.

Sonda qonaqlara DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

Qeyd edək ki, ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyası bütün dünyada dini azadlığı monitorinq edən müstəqil, iki partiyanın dəstəklədiyi, ABŞ hökumətinin federal hökumət komissiyasıdır.

# YAP könüllüləri "Kitablarımızı paylaşaq, dilimizi yaşadaq" aksiyasına start verib



2020-ci il - "Könüllülər ili" çərçivəsində "Könüllülərlə maariflənək" şüarı altında Yeni Azərbaycan Partiyasının (YAP) və "Azərkitab" Kitab Mərkəzinin birgə təşkilatçılığı ilə YAP könüllüləri Gürcüstanda yaşayan soydaşlarımızın istəyini nəzərə alaraq "Kitablarımızı paylaşaq, dilimizi yaşadaq" aksiyasına start veriblər.

Bu məqsədlə fevralın 22-də YAP İcra Katibliyində keçirilən tədbirdə çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, ölkəmizdə könüllülər hərəkatı böyük vüsət alıb. Onun sözlərinə görə, YAP Gənclər Birliyi "Könüllülər ili" çərçivəsində paytaxtda və regionlarda müxtəlif tədbirlərin keçirilməsini nəzərdə tutur. S.Orucov təqdim olunan layihənin də gənclər tərəfindən maraqla qarşılanacağına inandığını söyləyib.

YAP Sabunçu rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Misirxan Həsənov aksiya haqqında ətraflı məlumat verib. O bildirib ki, Gürcüstanda yaşayan gənc soydaşlarımız üçün bir ay ərzində 500 adda 2000 nüsxə kitab toplanıb. Bu kitablar Azərbaycan dilində nəşr olunmuş yerli və dünya ədəbiyyatını, dərslikləri və uşaq ədəbiyyatını əhatə edir.

M.Həsənovun sözlərinə görə, bu aksiya davamlı olacaq. Layihənin məqsədi odur ki, harada yaşamasından asılı olmayaraq, azərbaycanlı gənclər özlərini yalnız hiss etməsinlər, Azərbaycan gəncliyi hər zaman həmrəy olsun.

Tədbir daha sonra diskussiya şəklində davam edib.

**N.BAYRAMLI**

# YAP Səbail rayon təşkilatının yaradılmasının 27 illiyi münasibətilə tədbir keçirilib



Fevralın 21-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının yaranmasının 27-ci ildönümü münasibətilə təşkilatın rayon şurasının və idarə heyətinin iclası keçirilib. İclasda ötən il ərzində görülən işlərə yekun vurulub və qarşıda duran vəzifələr barədə danışılıb.

Əvvəlcə Yeni Azərbaycan Partiyasının yaradıcısı, müasir Azərbaycanın memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev Yeni Azərbaycan Partiyasının yaradılmasının tarixi zərurətdən gələn bir ehtiyac olduğunu diqqətə çatdırıb və partiyanın təsis edilməsinin ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu qeyd edib. Bildirib ki, partiyanın yarandığı illərdə ölkədə müharibə şəraiti hökm sürürdü. Digər tərəfdən, ölkəmizdə baş verən xoşagəlməz proseslər, siyasi böhran, iqtisadi tənəzzül müstəqilliyimizi itirmək təhlükəsi yaradırdı. Belə bir şəraitdə cəmiyyətimizin parlaq simaları, ziyalılar Ulu Öndər Heydər Əliyevin ətrafında birləşərək Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar qəbul etdilər.

Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycan müstəqilliyini qorudu, siyasi, iqtisadi, mədəni sahələrdə inkişaf yoluna qədəm qoydu. **"Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə YAP-ın yaradılması milli dövlətçiliyimizin mühüm dönüş nöqtəsi oldu. Ulu Öndər partiyanın regional təşkilatlarının yaradılmasına xüsusi diqqət ayırırdı",**- deyə YAP Səbail rayon təşkilatının sədri vurğulayıb.

Şəmsəddin Hacıyev bildirib ki, bu gün YAP Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə çox böyük qüvvəyə malik siyasi təşkilatlardan birinə çevrilib. YAP iqtidar partiyası olaraq Azərbaycanın inkişafı, çiçəklənməsi və yenilənməsi prosesində fəal iştirak edir.

Tədbirdə YAP Səbail rayon təşkilatının ötənilki fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

İclas müzakirələrlə davam etdirilib.

**MÜŞFİQƏ**

# YAP könüllülərinin topladığı kitabların "Kitablarımızı paylaşaq, dilimizi yaşadaq" layihəsi çərçivəsində Gürcüstanda paylanılmasına başlanılıb

Yeni Azərbaycan Partiyasının (YAP) könüllülərinin "Könüllülərlə maariflənək" şüarı altında topladığı kitabların "Kitablarımızı paylaşaq, dilimizi yaşadaq" layihəsi çərçivəsində qonşu Gürcüstanda paylanılmasına başlanılıb. Belə ki, kitabların bir hissəsi paytaxt Tbilisidəki Mirzə Fətəli Axundov adına 73 saylı Azərbaycandilli orta məktəbə təqdim olunub. Kitabların təhsil müəssisəsinə təqdimetmə tədbirində Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, YAP Sabunçu rayon təşkilatı Gənclər Birliyinin sədr müavini, layihənin rəhbəri Misirxan Həsənov, Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin direktoru Leyla Əliyeva, səfirlik əməkdaşları, məktəb rəhbərliyi və şagirdlər iştirak ediblər.



Məktəbin direktoru Salman Pirməmmədov kitablara görə minnətdarlığını bildirərək, bunu təhsil ocağı üçün çox dəyərli töhfə adlandırıb. O qeyd edib ki, məktəb kitabxanasının Azərbaycan dilində olan kitablara çox ehtiyacı var.

Aksiyanı yüksək qiymətləndirən səfir Dursun Həsənov bildirib ki, kitablar paytaxt Tbilisi ilə yanaşı, Gürcüstanda azərbaycanlıların kompakt yaşadıqları Kvemo Kartli bölgəsində yerləşən digər Azərbaycandilli məktəblərə də təqdim olunacaq.

Layihə haqqında məlumat verən Misirxan Həsənov kitab aksiyasının ilin sonuna qədər davam etdiriləcəyini deyib. O, Gürcüstandakı soydaşların bu aksiya çərçivəsində diqqətdə saxlanılacağını vurğulayıb. Onun sözlərinə görə, aksiya çərçivəsində artıq 500 adda 2 minə yaxın kitab toplanıb.

Onu da bildirək ki, məktəbə aksiya çərçivəsində 200-ə yaxın kitab hədiyyə olunub. M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyi də təhsil müəssisəsinə kitablar təqdim edib.

Qeyd edək ki, kitab aksiyası 2020-ci il - "Könüllülər ili" çərçivəsində YAP könüllüləri və "Azərkitab" Kitab Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilir. Kitablar Azərbaycan ədəbiyyatı, incəsənəti, dünya və uşaq ədəbiyyatını əhatə edir.

# İsraildəki "Xocalı 613" bağında xatirə mitinqi keçirilib

İsrailin Təl-Əviv şəhərində "Xocalı 613" bağında "Aziz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası yəhudilərin "Keren Kayemet le İsrael" (KKL) milli fondunun, "Xocalıya ədalət" ("Justice for Khojaly") beynəlxalq kampaniyasının və Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar xatirə mitinqi keçirib.



Yəhudilərin KKL milli fondunun Avrasiya bölməsinin başçısı İqal Yasinov xatirə mərasimini açaraq qonaqları salamlayıb. O, dost Azərbaycanın erməni millətçilərinin işğalçı siyasətinin qurbanı olmuş günahsız qurbanlarının xatirəsinə bağ salınmış Prezident meşəsində belə bir tədbirin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Sonra mərasimin aparıcısı, "Aziz" Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Yeganə Salman Xocalıda faciəli hadisələrin tarixindən danışıb.

Bu faciəyə görə dərin təəssüf hissi keçirdiyini söyləyən Knessetin deputatı Mark İfraimov ümidvar olduğunu bildirib ki, Dağlıq Qarabağ münaqişəsi yaxın vaxtlarda öz ədalətli həllini tapacaq.

Mitinqdə iştirak edən Azərbaycan Milli Məclisinin deputatı Rauf Əliyev qeyd edib ki, o, 4 il əvvəl bu bağın salınması mərasimində iştirak edib və Xocalı qurbanlarının xatirəsinə belə həssas yanaşdıqlarına görə təşkilatçılara və tədbir iştirakçılarına təşəkkür edib. Rauf Əliyev əmin olduğunu bildirib ki, Azərbaycan hökumətinin məqsədyönlü siyasəti sayəsində Dağlıq Qarabağ münaqişəsi tezliklə həllini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.

Sonra Kiryat Byalik şəhəri merinin müavini Naxum Raçevski, Xolon şəhəri merinin müavini Mixail Sutovski, "Aziz" Assosiasiyasının gənclər cinahının nümayəndəsi Ayaz Əzizov və ictimai qurumların rəhbərləri çıxış ediblər.

"Aziz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyanın prezidenti Lev Spivak Azərbaycanın dərdinə şərik olduqlarına görə hamıya təşəkkür edərək məxsusi olaraq bu kədərli gün üçün çap edilmiş "Haray" toplusunu təqdim edib.

Sonra XABAD-ın nümayəndəsi, ravvin Şaul David Burşteyn Xocalı qurbanlarının ruhuna dua oxuyub.

Tədbirin sonunda Azərbaycanın və İsrailin dövlət himnləri səslənib.